RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 189 (9934) 6 sentyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI



# Azərbaycan və Türkiyə liderlərinin enerji siyasəti




## Əməkdaşlığı genişləndirmək, enerji təhlükəsizliyini gücləndirmək, yeni investisiya layihələrini dəstəkləmək

İzmir şəhərində keçirilən Azərbaycan-Türkiyə IV Enerji Forumu bu sahədə ölkələrimiz arasında olan əməkdaşlığın daha da şaxələnməsi, yeni işgüzar əlaqələrin yaranması üçün növbəti addım oldu. Tərəflər ötən forumların səmərəliliyinə diqqət çəkərək bu görüşdə də müəyyənləşdirilən yeni hədəflər istiqamətində irəliləməyə, strateji tərəfdaşlığı daha yüksək mərhələlərə qaldırmağa qərarlı olduqlarını bildirdilər.

Öncə xatırladaq ki, bundan əvvəlki üçüncü forum 2023-cü ilin sentyabrında Naxçıvan şəhərində keçirilmişdi. Paralel olaraq ilk dəfə "Naxçıvan - "Yaşıl Enerji" Zonası" Beynəlxalq Konfransı da baş tutmuşdu. Bu tədbirlər çərçivəsində karbohidrogenlər və neft-kimya məhsulları, enerji səmərəliliyi, elektrik enerjisi bazarı, bərpaolunan enerjidən istifadə və mədənçilik istiqamətləri üzrə fəaliyyət göstərən birgə işçi qruplarının iclasları təşkil olunmuşdu.

Birinci və ikinci forumlar isə müvafiq olaraq 2021-ci ilin dekabrında Bakıda və 2022-ci ilin oktyabrında Türkiyənin İstanbul şəhərində keçirilmişdi. Onu da qeyd edək ki, Azərbaycan-Türkiyə Enerji Forumu iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya çərçivəsində strateji enerji əməkdaşlığının daha da möhkəmləndirilməsi məqsədilə yaradılıb.

Budəfəki forumun açılışında çıxış edən ölkəmizin energetika naziri Pərviz Şahbazov bildirib ki, Azərbaycan və Türkiyə uzun illərdir təkcə enerji sahəsində tərəfdaş deyil, həm də regionun geoiqtisadi mənzərəsini formalaşdıran, sülhə, sabitliyə və davamlı inkişafa töhfə verən, beynəlxalq enerji təhlükəsizliyində birgə addımlayan strateji müttəfiqlərdir: "Azərbaycan-Türkiyə enerji tərəfdaşlığı ölkələrimizi neft, qaz və bərpaolunan enerji sahəsində uzunmüddətli tərəfdaş kimi möhkəmləndirən, dəyişən geosiyasi reallıqlar fonunda regional və qlobal miqyasda mövqelərimizi gücləndirən yeni mərhələyə daxil olub. "İğdır-Naxçıvan" qaz kəmərinin istifadəyə verilməsi, TPAO şirkətinin "Şəfəq-Asiman" layihəsinə qoşulması, Suriyaya qaz tədarükünə başlanması, "yaşıl enerji" interkonnektorlarının qurulması və Zəngəzur dəhlizi, yaxud "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə razılaşmaların əldə olunması enerji əlaqələrimizin yeni, daha güclü səhifəsini yazır".

Zəngəzur dəhlizinin (TRIPP) Xəzər dənizi və Mərkəzi Asiyadan həm karbohidrogenlərin, həm də "yaşıl enerji"nin Naxçıvan üzərindən Türkiyə və beynəlxalq bazarlara çatdırılması üçün də strateji marşrut olacağı qeyd edilib. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Türkiyə və türk dövlətləri ilə enerji və kommunikasiya əlaqələrinə yeni güc qatacaq, ölkələrimizi Orta dəhlizin enerji, nəqliyyat və tranzit üzrə əsas mərkəzlərindən birinə çevirəcək. Bu kontekstdə Naxçıvanla Türkiyə arasında elektrik bağlantılarının yaradılmasının sürətləndirilməsinin vacibliyi vurğulanıb. Həmçinin "yaşıl enerji"nin ixracı və tranziti üzrə Naxçıvan, Zəngəzur marşrutları ilə yanaşı, "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan" interkonnektorunun da icrasından bəhs edilib. Eləcə də türk şirkətlərinin Kəlbəcər və Laçında həyata keçirdiyi ümumi gücü 13 meqavat olan 4 kiçik su-elektrik stansiyası, həmçinin Kəlbəcərdə 240 meqavatlıq külək-elektrik stansiyası layihələrinə də toxunulub.

5

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Azərbaycan və Türkiyə liderlərinin enerji siyasəti

## Əməkdaşlığı genişləndirmək, enerji təhlükəsizliyini gücləndirmək, yeni investisiya layihələrini dəstəkləmək

**Prezident İlham Əliyevin enerji siyasəti, ölkəmizin nəhəng neft, qaz və ixrac layihələri ilə qazandığı uğurlar, eləcə də "yaşıl gündəliy"imiz artıq bütün dünyaya bəllidir. Bu sahədə ən yaxın tərəfdaşlarımızdan biri qardaş Türkiyədir. Hələ 1990-cı illərin sonlarından, müəllifi Ulu Öndər Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ideyası meydana çıxandan üzübəri ölkələrimiz bütün regionun həyatında mühüm rol oynayan bir sıra layihələrin gerçəkləşməsində həmfikir, tərəfdaş, müttəfiqdirlər.**

İzmir şəhərində keçirilən Azərbaycan-Türkiyə IV Enerji Forumu bu sahədə ölkələrimiz arasında olan əməkdaşlığın daha da şaxələnməsi, yeni işgüzar əlaqələrin yaranması üçün növbəti addım oldu. Tərəflər ötən forumların səmərəliliyinə diqqət çəkərək bu görüşdə də müəyyənləşdirilən yeni hədəflər istiqamətində irəliləməyə, strateji tərəfdaşlığı daha yüksək mərhələlərə qaldırmağa qərarlı olduqlarını bildirdilər.

Öncə xatırladaq ki, bundan əvvəlki üçüncü forum 2023-cü ilin sentyabrında Naxçıvan şəhərində keçirilmişdi. Paralel olaraq ilk dəfə "Naxçıvan - "Yaşıl Enerji" Zonası" Beynəlxalq Konfransı da baş tutmuşdu. Bu tədbirlər çərçivəsində karbohidrogenlər və neft-kimya məhsulları, enerji səmərəliliyi, elektrik enerjisi bazarı, bərpaolunan enerjidən istifadə və mədənçilik istiqamətləri üzrə fəaliyyət göstərən birgə işçi qruplarının iclasları təşkil olunmuşdu.

Birinci və ikinci forumlar isə müvafiq olaraq 2021-ci ilin dekabrında Bakıda və 2022-ci ilin oktyabrında Türkiyənin İstanbul şəhərində keçirilmişdi. Onu da qeyd edək ki, Azərbaycan-Türkiyə Enerji Forumu iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya çərçivəsində strateji enerji əməkdaşlığının daha da möhkəmləndirilməsi məqsədilə yaradılıb.

Budəfəki forumun açılışında çıxış edən ölkəmizin energetika naziri Pərviz Şahbazov bildirib ki, Azərbaycan və Türkiyə uzun illərdir təkcə enerji sahəsində tərəfdaş deyil, həm də regionun geoiqtisadi mənzərəsini formalaşdıran, sülhə, sabitliyə və davamlı inkişafa töhfə verən, beynəlxalq enerji təhlükəsizliyində birgə addımlayan strateji müttəfiqlərdir: "Azərbaycan-Türkiyə enerji tərəfdaşlığı ölkələrimizi neft, qaz və bərpaolunan enerji sahəsində uzunmüddətli tərəfdaş kimi möhkəmləndirən, dəyişən geosiyasi reallıqlar fonunda regional və qlobal miqyasda mövqelərimizi gücləndirən yeni mərhələyə daxil olub. "İğdır-Naxçıvan" qaz kəmərinin istifadəyə verilməsi, TPAO şirkətinin "Şəfəq-Asiman" layihəsinə qoşulması, Suriyaya qaz tədarükünə başlanması, "yaşıl enerji" interkonnektorlarının qurulması və Zəngəzur dəhlizi, yaxud "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə razılaşmaların əldə olunması enerji əlaqələrimizin yeni, daha güclü səhifəsini yazır".

Zəngəzur dəhlizinin (TRIPP) Xəzər dənizi və Mərkəzi Asiyadan həm karbohidrogenlərin, həm də "yaşıl enerji"nin Naxçıvan üzərindən Türkiyə və beynəlxalq bazarlara çatdırılması üçün də strateji marşrut olacağı qeyd edilib. Bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Türkiyə və türk dövlətləri ilə enerji və kommunikasiya əlaqələrinə yeni güc qatacaq, ölkələrimizi Orta dəhlizin enerji, nəqliyyat və tranzit üzrə əsas mərkəzlərindən birinə çevirəcək. Bu kontekstdə Naxçıvanla Türkiyə arasında elektrik bağlantılarının yaradılmasının sürətləndirilməsinin vacibliyi vurğulanıb. Həmçinin "yaşıl enerji"nin ixracı və tranziti üzrə Naxçıvan, Zəngəzur marşrutları ilə yanaşı, "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan" interkonnektorunun da icrasından bəhs edilib. Eləcə də türk şirkətlərinin Kəlbəcər və Laçında həyata keçirdiyi ümumi gücü 13 meqavat olan 4 kiçik su-elektrik stansiyası, həmçinin Kəlbəcərdə 240 meqavatlıq külək-elektrik stansiyası layihələrinə də toxunulub.

Beləliklə, bu forum karbohidrogenlərdən mədənçiliyə, bərpaolunan enerjidən enerji tənzimlənməsinə qədər geniş sahələrə aid əməkdaşlığı təşviq etməklə Azərbaycan-Türkiyə enerji birliyinin uzunmüddətli enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini möhkəmləndirib.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar da öz çıxışında bunları vurğulayıb: "Enerji ölkələrimizin inkişafının və rifahının ən əsas təkanverici qüvvələrindən biridir. Türkiyə və Azərbaycan malik olduqları geostrateji mövqe, zəngin resurslar və inkişaf etmiş infrastrukturla bir-birini tamamlayan rollar oynayır, eyni zamanda regional və qlobal enerji təchizatı təhlükəsizliyinə mühüm töhfələr verir. Neft və təbii qaz sahələrində indiyə qədər həyata keçirilən layihələr ortaq baxışımızın düzgün və nəticəyönümlü olduğunu göstərir. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları ilə təməli qoyulan əməkdaşlığımız bu il imzaladığımız "Şəfəq-Asiman" layihəsi ilə yeni bir mərhələyə keçib. "Qarabağ", "D-230" və "Dostluq" yataqlarında əməkdaşlığımızı gücləndirmək də əsas hədəflərimiz arasındadır".

A.Bayraktar deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bu il martın 5-də açılışı edilən İğdır-Naxçıvan Təbii Qaz Boru Kəməri Naxçıvanın təchizat təhlükəsizliyini təmin etməklə yanaşı, Türkiyə ilə Azərbaycan arasındakı bağları daha da gücləndirir. Bununla yanaşı, Azərbaycanın Türkiyəyə təbii qaz ixracının artırılması istiqamətində işlərin sürətlə irəliləməsini arzuladıqlarını bildirib.

Yeri gəlmişkən: indiyədək ölkəmizdən Türkiyəyə 120 milyard kubmetrdən çox qaz ixrac olunub, TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) Türkiyəyə 35 milyard, Avropaya isə 50 milyard kubmetrdən artıq qaz nəql edilib. Bu ilin 8 ayında Türkiyəyə 6,6 milyard, Türkiyə üzərindən Avropa ölkələrinə isə 8,3 milyard kubmetr qaz çatdırılıb. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi sayəsində Suriyanın da enerji təhlükəsizliyinə töhfə verilir və qısa müddətdə bu ölkəyə 60 milyon kubmetr qaz göndərilib.

IV Forumun açılış mərasimində Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev də çıxış edərək iki ölkənin enerji keçidi sahəsində əməkdaşlığının və COP29 təşəbbüsləri üzrə həmrəyliyinin iqlim məsələlərinə töhfələrindən danışıb. Forum çərçivəsində fəaliyyət göstərən karbohidrogen və neft-kimya, elektrik enerjisi bazarı, elektrik enerjisinin paylanması və ötürülməsi, tənzimləmə, enerji səmərəliliyi və mədənçilik üzrə İşçi qruplarının məruzələri dinlənilib. Enerji şirkətlərinin iştirakı ilə "dəyirmi masa" keçirilib. Yekunda "Türkiyə-Azərbaycan IV Enerji Forumunun Protokolu" imzalanıb.

Forumda enerji təhlükəsizliyinin gücləndirilməsi, qlobal və regional enerji qurumları ilə əməkdaşlığın davam etdirilməsi məsələləri diqqət mərkəzində olub. Elektrik enerjisi sahəsində ikitərəfli və çoxtərəfli layihələrin birgə icrası, eləcə də Türkiyədə, Azərbaycanda və üçüncü ölkələrdə enerji və mədənçilik investisiya layihələrinin dəstəklənməsi üzrə əməkdaşlıq etmək razılaşdırılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*